Azərbaycan Texniki Universitetinin Elmi
Şurasının 5 iyul 2025-ci il
tarixli iclasının qərarı ilə qəbul edilmişdir.
(protokol № 8 )

# KEYFİYYƏT VƏ REYTİNQLƏRİN İDARƏEDİLMƏSİ KOMİTƏSİNİN

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Texniki Universitetində (AzTU) Keyfiyyət və Reytinqlərin İdarəedilməsi Komitəsinin (bundan sonra – Komitə) yaradılması, strukturlaşdırılması, fəaliyyət istiqamətləri, vəzifə və səlahiyyətlərini tənzimləyir;
1.2. Komitənin əsas məqsədi universitetdə təhsil və elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq və yerli reytinqlərdə mövqeyin yaxşılaşdırılması, keyfiyyət təminatı mexanizmlərinin tətbiqi və davamlı inkişafın təmin olunmasıdır;
1.3. Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyini, təhsil sahəsində beynəlxalq standartları, AzTU-nun daxili normativ sənədlərini və bu Əsasnaməni rəhbər tutur.

## 2. Komitənin məqsədi

2.1. Universitet üzrə keyfiyyət təminatı sistemini strateji əsaslarla formalaşdırmaq və inkişaf etdirmək;
2.2. Daxili və xarici qiymətləndirmələrə hazırlıq görmək və müvafiq göstəricilərin yaxşılaşdırılmasına töhfə vermək;
2.3. Milli və beynəlxalq reytinqlərdə AzTU-nun mövqeyini yüksəltmək üçün indikatorlara əsaslanan təhlillər aparmaq və fəaliyyətləri əlaqələndirmək.

## 3. Komitənin tərkibi və fəaliyyət prinsipləri

3.1. Komitə rektorun əmri ilə təsdiq olunmuş əsas üzvlərdən ibarət olur. Üzvlər universitetin rəhbər heyəti, fakültələr, elmi-tədqiqat institutları, administrativ bölmələr və tələbə nümayəndələri arasından seçilə bilər;
3.2. Komitəyə bir sədr (adətən prorektor və ya müvafiq struktur rəhbəri) rəhbərlik edir. Sədr Komitənin fəaliyyətinə ümumi rəhbərlik edir, iclasları çağırır və qərarların icrasına nəzarət edir;

3.3. Komitə üzvləri qəbul edilmiş qərarların icrası və fəaliyyət hesabatlarının vaxtında hazırlanmasına görə məsuliyyət daşıyırlar;

3.4. Məlumatların düzgünlüyü, konfidensiallığı və etik prinsiplərə əməl olunması üzvlər üçün məcburidir;

3.5. Komitə üzvləri komissiya iclaslarında aktiv iştirak etməli, vəzifə bölgüsünə uyğun fəaliyyət göstərməlidirlər;

3.6. Vəzifə və öhdəliklərin yerinə yetirilməməsi halında üzv Komitədən çıxarıla və əvəz edilə bilər;

3.7. Komitə hər ayın sonuncu çərşənbə axşamı mütəmadi iclas keçirir. Zəruri hallarda fövqəladə iclaslar da çağırıla bilər;

3.8. Komitənin iclaslarında qəbul olunan qərarlar sadə səs çoxluğu ilə qəbul edilir və rəsmi protokollarla sənədləşdirilir;

3.9. Komitənin katibi sənədləşmə, gündəlik tərtibi, protokollaşdırma və informasiya axınının təmin edilməsinə cavabdehdir.

## 4. Komitənin funksiyaları

4.1. Keyfiyyət təminatı üzrə siyasət, strategiya və prosedur sənədlərinin hazırlanmasına dair təkliflər irəli sürmək və onların icrasında iştirak etmək;

4.2. Universitetdə tədris, tədqiqat və idarəetmə fəaliyyətlərinin keyfiyyət göstəricilərini müəyyənləşdirmək və mütəmadi monitorinqini aparmaq;

4.3. Akkreditasiya və reytinq göstəricilərinə uyğun daxili audit, özünütəhlil və hesabatların hazırlanmasını əlaqələndirmək;

4.4. Fakültə və struktur bölmələr üzrə illik performans qiymətləndirmələri aparmaq və ümumi təhlil hesabatları təqdim etmək;

4.5. Keyfiyyət və reytinqlərin idarəedilməsi ilə bağlı fəaliyyətləri tənzimləyən Fəaliyyət planını hazırlamaq və fakültə üzrə məsul şəxslərin funksiyalarını, fəaliyyət istiqamətlərini müəyyənləşdirmək;

4.6. Fakültə dekanlarının rəhbərliyi ilə proseslərin həyata keçirilməsi, monitorinqi və təkmilləşdirilməsi istiqamətində hesabatlar hazırlamaq və müvafiq qərarlar qəbul etmək;

4.7. Təhsilverən və təhsilalanların qərarvermə proseslərinə cəlb olunması üçün Məşvərətçi Qruplar yaratmaq və fəaliyyətini izləmək; tədris keyfiyyəti, tələbə məmnuniyyəti və akademik fəaliyyətlərdəki çatışmazlıqlara dair tövsiyələrin hazırlanmasını koordinasiya etmək;

4.8. Yerli və beynəlxalq reytinqlərin təkmilləşdirilməsi üzrə fəaliyyətləri əlaqələndirmək, müvafiq məlumatların toplanması və təhlil edilməsini təmin etmək, reytinq meyarlarına uyğun tədbirlərin həyata keçirilməsini dəstəkləmək;

4.9. Fakültə və institutlarda təkmilləşdirmə planlarının hazırlanmasına dəstək vermək, yarımillik və illik hesabatları dinləyərək fəaliyyətin izlənməsini təmin etmək;
4.10. Mütəmadi olaraq daxili qiymətləndirmə və audit prosesləri təşkil etmək və bu qiymətləndirmələr əsasında universitetin idarəetmə proseslərinin təkmilləşdirilməsini təmin etmək;
4.11. Universitetin fəaliyyətini tənzimləyən daxili sənəd və qaydaların müzakirəsini təşkil etmək, onları təsdiq etmək və tətbiq olunmalarını təmin etmək;
4.12. Keyfiyyət sahəsində universitet əməkdaşları üçün təlimlər təşkil etmək və metodik dəstək vermək;
4.13. Reytinqlərlə bağlı məlumatların toplanması, təhlili və təqdim olunmasını təmin etmək;
4.14. Sorğu alətləri, indikatorlar və hesabat sistemlərini formalaşdırmaq və mütəmadi təkmilləşdirmək.

## 5. Komitənin vəzifə və səlahiyyətləri

5.1. Universitet üzrə keyfiyyət təminatı və reytinq fəaliyyətlərinin strateji planlaşdırılmasını təşkil və koordinasiya etmək;
5.2. Fakültə, mərkəz, institut və digər struktur bölmələrin fəaliyyətini keyfiyyət indikatorları üzrə sistemli şəkildə təhlil etmək, fəaliyyətləri əlaqələndirmək və istiqamətləndirici tövsiyələr vermək;
5.3. Təhsil, tədqiqat və innovasiya sahələrində aparılan daxili qiymətləndirmə mexanizmlərini idarə etmək və nəticələr əsasında qərar qəbul edilməsinə dəstək vermək;
5.4. Beynəlxalq və milli reytinq sistemləri üzrə (THE, QS, URAP, Webometrics və s.) təhlillər aparmaq, strateji qərarların qəbulu üçün əsaslandırılmış fəaliyyət planları hazırlamaq və icrasını izləmək;
5.5. Akkreditasiya proseslərinin təşkili və keçirilməsində əlaqələndirici qurum kimi çıxış etmək, daxili audit və özünütəhlil proseslərini yönləndirmək və nəticələr üzrə qərarlar vermək;
5.6. Keyfiyyət təminatı sahəsində daxili normativ sənədlərin hazırlanması, yenilənməsi və tətbiqinə dair koordinasiyaedici fəaliyyət göstərmək və müvafiq struktur bölmələrlə birgə qərarlar vermək;
5.7. Tələbə, məzun və işəgötürənlər arasında keçirilən sorğuların təşkili və nəticələrinin təhlili üzrə sistemli yanaşma formalaşdırmaq, qərarvermə prosesini bu nəticələrə əsasən yönləndirmək;

5.8. Keyfiyyət üzrə məsul şəxslərlə əməkdaşlığı əlaqələndirmək, onların fəaliyyətini istiqamətləndirmək və metodik dəstək mexanizmlərini gücləndirmək;

5.9. Komitə iclaslarında qəbul edilmiş qərarların icrasına nəzarət etmək, icra prosesini əlaqələndirmək və tələb olunan hallarda düzəlişlərə dair yeni qərarlar qəbul etmək.

## 6. Komitənin hüquqları

6.1. Universitetin struktur bölmələrindən tələb olunan məlumat və sənədləri almaq;

6.2. Keyfiyyət təminatı və reytinq göstəriciləri üzrə təhlil və rəy vermək hüququ ilə hesabatları təsdiqləmək və paylaşmaq;

6.3. Təkliflər əsasında universitetin daxili normativ sənədlərinə dəyişiklik təşəbbüsü ilə çıxış etmək;

6.4. Akkreditasiya və monitorinq zamanı komissiyalarda müşahidəçi və ya ekspert kimi iştirak etmək;

6.5. Universitetin keyfiyyət təminatı üzrə siyasətinə dair tədbirlərin təşkili və təşəbbüslər qaldırmaq.